# Küveytin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz Əl-Rumi Qəbələ rayonuna səfər edib

Küveytin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz Əl-Rumi yanvarın 24-də tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər edib.

Qəbələ Rayon İcra Hakimiyyətində səfirin icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə görüşü olub.

Görüş zamanı RİH-nin başçısı səfirə rayonun tarixi, iqtisadiyyatı, sosial və mədəni həyatı barədə ətraflı məlumat verib. Qeyd olunub ki, ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatının, o cümlədən bağçılığın, üzümçülüyün, tərəvəzçiliyin, tütünçülüyün və heyvandarlığın inkişafı istiqamətində rayonda müsbət nəticələr əldə olunub.



Ecazkar gözəlliyi və qonaqpərvər insanları olan rayonda turizm infrastrukturunun inkişaf etdirildiyini qeyd edən RİH-nin başçısı qədim tarixə malik Qəbələdə yerli və xarici turistlərə yüksək səviyyədə xidmət göstərilməsi məqsədilə müasir turizm istirahət mərkəzlərinin yaradıldığını vurğulayıb.

Görüşdə Qəbələnin sənaye müəssisələrində istehsal edilən məhsulların dünyanın bir çox ölkələrinə ixrac olunduğu diqqətə çatdırılıb.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən səfir Səud Əbdüləziz Əl-Rumi Küveyt və Azərbaycan dövlətləri arasında ikitərəfli əməkdaşlığın müsbət nəticələrindən söz açıb. Səfir rayonun sənaye, kənd təsərrüfatı, təhsil və turizm sahəsindəki potensialı ilə maraqlanıb.



Görüş zamanı ikitərəfli əməkdaşlıq məsələləri də müzakirə edilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Heydər Əliyev Konqres Mərkəzində, "ASAN xidmət" mərkəzində, turizm obyektlərində, rayonun istehsal və emal müəssisələrində olan səfir Qəbələdən xoş təəssüratlarla ayrılıb.

**"Qəbələ"**

# Sosial rifahın yüksəldilməsinə dövlət qayğısı göstərilir

***Rayon icra hakimiyyəti başçılarının əhali ilə səyyar görüşlərinin keçirilməsi idarəetmə sisteminin mühüm tərkib hissəsinə çevrilib.***

***Bu ənənə respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda da müntəzəm davam etdirilir, qəsəbə və kəndlərdə ardıcıl olaraq səyyar görüş-qəbullar təşkil olunur.***

***Səyyar görüşlər zamanı adamları düşündürən məsələlər öyrənilir, həll edilməsi üçün ciddi nəzarətə götürülür və vaxtında icra olunur.***

## Vəndam qəsəbəsi



Belə görüşlərdən biri bu günlərdə Vəndam qəsəbəsində keçirilib. Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar xidmət təşkilatlarının rəhbərləri və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev respublikamızın bu günkü uğurlu inkişafından danışıb. Qeyd olunub ki, bu gün respublikanın hər bölgəsində, o cümlədən Qəbələ rayonunda geniş tikinti-abadlıq



işləri aparılır -- yeni yollar salınır, qaz xətləri çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, digər sosial layihələr həyata keçirilir.

Diqqətə çatdırılıb ki, ölkə başçısı tərəfindən kənd təsərrüfatının inkişafına böyük diqqət yetirilir, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına, o cümlədən fındıqçılığa, tütünçülüyə və baramaçılığa xüsusi dəstək göstərilir. Görülən işlər, həyata keçirilən tədbirlər əhalimizin firavan yaşamasına, onların sosial rifahının və həyat səviyyəsinin daha da yüksəldilməsinə xidmət edir.

Görüşdə son illər Vəndam qəsəbəsində də geniş quruculuq işlərinin aparıldığı, sosial problemlərin aradan qaldırıldığı qeyd olunub. Yaşayış məntəqəsində 1 nömrəli məktəbin əsaslı təmir olunduğu, daxili yollarda təmir işlərinin aparıldığı, ərazinin telefonlaşdırıldığı, yeni artezian quyularının qazıldığı, hazırda 2 nömrəli məktəbin binasının inşasına başlanıldığı, sakinlərin fasiləsiz rabitə, elektrik enerjisi və təbii qazla təchiz edildiyi vurğulanıb.

Sonra qəsəbə sakinləri dinlənilib. Onlar Qəbələ rayonunda və Vəndam qəsəbəsində görülmüş abadlıq-quruculuq işlərinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

Çıxış edənlər qəsəbədə həllini gözləyən məsələlər barədə təklif və mülahizələrini söyləyiblər.

Görüşü yekunlaşdıran RİH başçısı əhali tərəfindən qaldırılan məsələlərin araşdırılaraq tədbir görülməsi ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verib.

---

## Böyük Əmili kəndi

Böyük Əmili kəndində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin səyyar görüş-qəbulu keçirilmişdir.

Hüquq-mühafizə orqanlarının, xidmət sahələri rəhbərlərinin, kənd ictimaiyyəti nümayəndələrinin, ziyalıların və ağsaqqalların iştirak etdiyi görüşdə RİH başçısı respublikamızda qazanılan uğurlardan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rayonumuza göstərdiyi xüsusi diqqət və qayğıdan, rayonumuzda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışmışdır.

Sonra kənd sakinlərinin mü-



raciətləri dinlənilmişdir.

Sakinlərdən Qüdrət Əfəndiyev, Elçin Baxışov, Hüsaməddin Gözəlov, Zülfü Məmmədov, Nüsrət Hacıyev və başqaları çıxış edərək ərazidə əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, adamların məşğulluğunun təmin olunması ilə bağlı Qəbələ rayonuna göstərilən dövlət qayğısına görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Çıxış edənlər rayonumuzun kənd təsərrüfatı sektoru üçün



yeni və gəlirli sahə sayılan şəkər çuğunduru əkininin genişləndirilməsi, ənənəvi tütünçülüyün və baramaçılığın inkişafına mane olan problemlərin aradan qaldırılması istiqamətində təkliflər irəli sürmüşlər.

Rayon icra hakimiyyətinin başçısı səyyar görüş-qəbulda sakinlər tərəfindən edilən müraciətlərlə bağlı əlaqədar təşkilatların rəhbərlərinə müvafiq göstərişlər vermişdir.

**"Qəbələ"**

**Fotolar İlkin Vəlizadənindir.**